# “Heydər Əliyev irsi – yeni sosial islahatlar”



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində “Heydər Əliyev və Azərbaycanda yeni sosial müdafiə sisteminin formalaşdırılması” mövzusunda “dəyirmi masa” keçirilib. Öncə ümummilli lider Heydər Əliyevin nazirliyin foyesindəki büstü qarşısına gül dəstələri qoyulub, xatirəsi ehtiramla yad olunub.**

“Dəyirmi masa”da Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının sədri Arif Rəhimzadə, hökumət və qeyri-hökumət qurumlarının, beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri iştirak ediblər.

Tədbir Dövlət Sosial Müdafiə Fondunun sədri Himalay Məmişovun “Heydər Əliyev irsi – yeni sosial islahatlar” mövzusunda təqdimatı ilə başlayıb. Sahil Babayev, Musa Quliyev və Arif Rəhimzadə müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu ulu öndər Heydər Əliyevin ölkəmizdə etibarlı sosial müdafiə sisteminin qurulması və inkişafı sahəsində misilsiz tarixi xidmətlərini qeyd ediblər. Bildirilib ki, ümummilli liderin 1993-cü il iyunun 15-də Azərbaycanın rəhbərliyinə qayıdışı ölkəmizi dövlət müstəqilliyinin itirilməsi təhlükəsindən, dərin siyasi, iqtisadi və sosial böhrandan xilas edib. Ulu öndər tərəfindən Azərbaycanda sosial müdafiə sisteminin gücləndirilməsi üçün ardıcıl tədbirlərin həyata keçirilməsi təmin olunub.

Ümumilikdə, 1995–2003-cü illər ərzində respublikamızda pensiya və müavinətlərin orta aylıq məbləğində 8 dəfə, orta aylıq əməkhaqqında 6 dəfədən çox artım olub, sosial sahədə qanunvericilik bazası yaradılıb. Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanlar üçün bir sıra sosial müdafiə, o cümlədən mənzillə təminat tədbirlərinə başlanıb.

Ümummilli lider Heydər Əliyevin uğurlu daxili və xarici siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə yüksək səviyyədə davam və inkişaf etdirilməsi nəticəsində Azərbaycanın qazandığı tarixi uğurlar, 44 günlük Vətən müharibəsindəki möhtəşəm Zəfərimiz qeyd olunub. Ölkəmizdə aparılan ardıcıl sosial islahatlar, xüsusilə son 5 ildə 4 sosial islahat paketi icra olunaraq sosial ödənişlərdə ciddi artımlar edildiyi, sosial müdafiə və aktiv məşğulluq proqramlarının dəfələrlə genişləndiyi, sosial sahədə innovativ həllərin geniş tətbiq edildiyi qeyd olunub.

*Zərifə BƏŞİRQIZI, “Xalq qəzeti”*

Xalq qəzeti .- 2023.- 15 aprel.- S.5.